**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnə əsasən düzgün fikri seçmək tələb olunur.* ***"Dhamal is a modern type of dance in India.", "Dhamal is always performed at sunrise.", "The clothing of the dancers is dark." və "Dancers try to break coconuts with their hands."*** *yanlış fikri ifadə etdiyi üçün yanlış bəndlərdir.* ***"Dhamal combines African and Indian musical traditions." (Dhamal Afrika və Hindistanın musiqi ənənələrini özündə birləşdirir)*** *fikri mətndə öz əksini tapdığına görə, test tapşırığının* ***doğru cavabıdır.***

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Choose the correct answer to the question according to the passage.

*What do the farmers do when their crop is ready?*

1. They pray to God for their crop.
2. They throw a coconut up into the air.
3. They burn peacock feathers on fire.
4. They bend down in the shape of half-ring.

A) 3, 4 B) 2, 3 C) 1, 2 D) 2, 4 E) 1, 4

**Alt-standart:** 5-3.1.4. Mətnin məzmununa uyğun suallara cavab verir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən verilmiş suala düzgün cavabları əks etdirən bəndi müəyyənləşdirmək tələb olunur.* ***"They throw a coconut up into the air.", "They burn peacock feathers on fire." cümlələri*** *sualın doğru cavabları olmadığı üçün bu bəndlər yanlış cavab hesab edilir.* ***"They pray to God for their crop." (Onlar məhsula görə Allaha dua edirlər), "They bend down in the shape of half-ring." (Onlar yarımqövs şəklində əyilirlər)*** *cümlələri olan bənd test tapşırığının* ***doğru cavabıdır.***

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Complete the sentence according to the passage.
*The Siddi people … .*
A) have settled in Gujarat recently
B) have kept some African traditions
C) performed Dhamal after bad hunting
D) rejected following Indian customs
E) refused speaking the Indian language

**Alt-standart:** 8-3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir. Mətnə əsasən cümləni düzgün tamamlamaq tələb olunur.* ***“Have settled in Gujarat recently.”, “performed Dhamal after bad hunting.”, “rejected following Indian customs.”, “refused speaking the Indian language.”*** *bəndləri* ***“the Siddi people”*** *mübtədası ilə başlanan cümləni məntiqi cəhətdən düzgün tamamlamadığı üçün yanlış cavablardır.* ***“Have kept some African traditions.”*** *bəndi verilmiş ifadənin məntiqi cəhətdən düzgün davamı olduğu üçün* ***doğru cavabdır****.*

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

The passage is mainly about … .
A) the dancers’ costumes at the festival
B) specific features of African music
C) the traditional dance of the Siddi people
D) gathering harvest from the fields
E) hunting wild animals in Gujarat

**Alt-standart:** 7-3.1.4. Mətndəki əsas fikri müəyyən edir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və mətnin əsasən nədən bəhs etdiyi soruşulur. Verilmiş bəndlərdən* ***“the dancers’ costumes at the festival”, “specific features of African music”, “gathering harvest from the fields”*** *və* ***“hunting wild animals in Gujarat”*** *fikirləri mətndə verilsə də, mətnin məzmununu tam əks etdirmədiyi üçün yanlış cavablardır. Mətn, əsasən,* ***Siddi xalqının ənənəvi rəqsindən*** *bəhs etdiyi üçün test tapşırığının* ***doğru cavabı “the traditional dance of the Siddi people”*** *olan bənddir.*

***Fulfil the tasks number 27 – 30 in the “Answer sheets”.***

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Write the synonym of the word “*to maintain*” from paragraph 1.

**Alt-standart:** 10-3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada* ***“to maintain” (qoruyub saxlamaq)*** *feilinin abzas 1-də sinonimini müəyyən edib yazmaq tələb olunur. Beləliklə, bu test tapşırığının* ***doğru cavabı “to preserve” (qoruyub saxlamaq)*** *feilidir.*

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Which word from paragraph 3 best fits the following definition “*being the only one of its kind*”?

**Alt-standart:** 7- 3.1.1. Söz və ifadələrin leksik-semantik mənasını fərqləndirir

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş leksik izaha uyğun olan sözü 3-cü abzasdan müəyyən edib yazmaq tələb olunur. Buna görə də, mətnin 3-cü abzasına əsasən* ***doğru cavab “unique” (özünəməxsus, nadir)*** *sifətidir.*

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Complete the sentence by changing at least 2 words according to the passage.
*During the reign of kings, Dhamal … .*

**Alt-standart:** 8- 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır; 9-3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.

**İzah:** *Bu test tapşırığı oxu mətninə aiddir və yazılı cavab tələb edir. Burada verilmiş cümləni mətnə əsasən ən azı 2 sözü dəyişməklə tamamlamaq tələb olunur. Verilmiş* ***“During the reign of kings, Dhamal … .”*** *cümləsini* ***“…****was the* ***main (key, chief, major və s.) source (origin)*** *of* ***entertainment (fun, amusement, joy və s.)*** *for the* ***rulers (heads)”*** *şəklində tamamlamaq mümkündür.*

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Answer the question by expressing your opinion. Write at least three sentences.
*Which dance is your favourite one and why?*

**Alt-standart:** *7 – 4.1.2. Müxtəlif əşya və hadisələri təsvir edir. 9 – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır. 10 – 4.1.3. Cümlələri və abzasları düzgün əlaqələndirmək üçün bağlayıcı vasitələrdən istifadə edir. 11 – 3.1.4. Mətndəki fakt və hadisələri real həyatla əlaqələndirərək şərh edir.*

**İzah:** *Bu açıq tipli suala öz fikrini ifadə etməklə ən azı üç cümlə ilə cavab yazmaq tələb olunur. Cavab yazarkən birləşdirici vasitələrin köməyi ilə fikirləri əlaqəli və ardıcıl şəkildə ifadə etmək, fikirlər arasında məntiqi rabitəni təmin etmək, müxtəlif qrammatik forma və strukturlardan (sadə və mürəkkəb cümlələr) düzgün və yerində istifadə etməklə zaman uzlaşmasını gözləmək və mövzuya uyğun söz və söz birləşmələrindən yerində və düzgün şəkildə istifadə etmək tələb olunur. Bu suala nümunə cavab aşağıdakı kimi ola bilər:*

***Yalli is my favourite dance. It is generally performed at weddings and festivities. I love this dance because the dancers hold hands in a line showing the unity.***

## Azərbaycan dili

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Hansı sırada bütün sözlərin yazılışı ***səhvdir***?

A) yarımfinal, heykəltəraş, yasdı
B) düm-ağ, kəmşirin, balerina
C) ekspres, ədliyə, ilbəil
D) monastır, silindr, üfüq
E) düşgün, koktel, alayarımçıq

***Mövzu:*** Orfoqrafiya
***Sinif:*** 5-11
***Alt-Standart: :*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *Test tapşırığının cavab bəndlərindəki sözlərin düzgün yazılışı belədir:* yarımfinal, heykəltaraş, yastı; dümağ, kəmşirin, balerina; ekspres, ədliyyə, ilbəil; monastır, silindr, üfüq; düşkün, kokteyl, ala-yarımçıq
***Doğru cavab:*** düşgün, koktel, alayarımçıq

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

*"Gözü su içməmək"* frazeoloji birləşməsi hansı mənaya uyğun gəlir?

A) cəzalandırmaq B) inanmamaq C) aldatmaq
D) danlamaq E) bəyənməmək

***Mövzu:*** Leksika
***Sinif:*** 5
***Alt-Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *"Gözü su içməmək"* frazeoloji birləşməsi *şübhələnmək, inanmamaq, etibar etməmək* mənasına uyğundur.
***Doğru cavab:*** inanmamaq

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Uyğunluğu müəyyənləşdirin.

1. Mübtədanın əlavəsi işlənmişdir.
2. Tamamlığın əlavəsi işlənmişdir.
3. Yer zərfliyinin əlavəsi işlənmişdir.

a. Azərin atasına – Amil dayıya məktub yazdıq.
b. İki gündən sonra Cavadı – yeni mühəndisi nazirliyə dəvət etdilər.
c. Bizim evimiz mənzərəli bir yerdə – göl qırağında idi.
d. Qrupun yeni rəhbəri – gənc qız görüləcək işlərdən danışdı.
e. Anar kəndə – bu doğma obaya tez-tez gəlirdi.

A) 1 – b; 2 – e; 3 – c B) 1 – b; 2 – d; 3 – e
C) 1 – d; 2 – a, b; 3 – e D) 1 – a, d; 2 – b; 3 – c
E) 1 – d; 2 – a; 3 – c, e

***Mövzu:*** Əlavələr
***Sinif:*** 8
***Alt-Standart:*** 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Azərin atasına – Amil dayıya məktub yazdıq* və *İki gündən sonra Cavadı – yeni mühəndisi nazirliyə dəvət etdilər* cümlələrində əlavə tamamlığa; *Bizim evimiz mənzərəli bir yerdə – göl qırağında idi* cümləsində əlavə xəbərə; *Qrupun yeni rəhbəri – gənc qız görüləcək işlərdən danışdı* cümləsində əlavə mübtədaya; *Anar kəndə – bu doğma obaya tez-tez gəlirdi* cümləsində əlavə yer zərfliyinə aiddir.
***Doğru cavab:*** 1 – d; 2 – a, b; 3 – e

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Hansı cümlədə tamamlıq söz birləşməsi ilə ifadə ***olunmamışdır***?

A) Hamı öz fikrinin doğru olduğuna inanırdı.
B) Əcnəbi turistlər Şəkinin görməli yerlərini gəzdilər.
C) Bu meyvələrin hamısını Məhəmmədhəsən əminin bağından dərmişik.
D) Bu hadisədən sonra Sevil hər şeyi etiraf etdi.
E) Vaqif, bu adamların çoxunu tanımıram.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 8
***Alt-Standart:*** 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Hamı* ***öz fikrinin doğru olduğuna*** *inanırdı* cümləsində tamamlıq feili birləşmə ilə; *Əcnəbi turistlər* ***Şəkinin görməli yerlərini*** *gəzdilər. Bu* ***meyvələrin hamısını*** *Məhəmmədhəsən əminin bağından dərmişik, Vaqif, bu* ***adamların çoxunu*** *tanımıram cümlələrində tamamlıqlar ismi birləşmə ilə; Bu hadisədən sonra Sevil* ***hər şeyi*** *etiraf etdi* cümləsində isə tamamlıq əvəzliklə ifadə olunmuşdur.
***Doğru cavab:*** Bu hadisədən sonra Sevil hər şeyi etiraf etdi.

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

Uyğunluğu müəyyənləşdirin.

1. İsmi birləşmə işlənmişdir.
2. Feili birləşmə işlənmişdir.

a. Qəfildən səs eşidildi.
b. Düşmənin çirkin niyyətini dünyaya sübut etməliyik.
c. Sən bunumu deyirdin?
d. Cəmil gedərkən uşaqlar yuxulu idilər.
e. Təşkil edilmiş bu sərgidə rəssamlar da iştirak edirdilər.

A) 1 – c; 2 – d, e B) 1 – b, c; 2 – a
C) 1 – a; 2 – c, e D) 1 – b; 2 – d, e
E) 1 – b, e; 2 – d

***Mövzu:*** Söz birləşmələri
***Sinif:*** 8
***Alt-Standart:*** 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.

***İzah:*** *Qəfildən səs eşidildi, Sən bunumu deyirdin?* cümlələrində söz birləşməsi işlənməmişdir. ***Düşmənin çirkin niyyətini*** *dünyaya sübut etməliyik,* ***Təşkil edilmiş bu sərgidə*** *rəssamlar da iştirak edirdilər* cümlələrində ismi birləşmə işlənmişdir. ***Cəmil gedərkən*** *uşaqlar yuxulu idilər* cümləsində feili birləşmə işlənmişdir.
***Doğru cavab:*** 1 – b, e; 2 – d

## A variantı 36 saylı test tapşırığı
## B variantı 32 saylı test tapşırığı
## C variantı 32 saylı test tapşırığı
## D variantı 36 saylı test tapşırığı

Söz sırasının pozulduğu hansı nümunədə həm sadə, həm də mürəkkəb isim işlənmişdir?

A) Bəs kimə yetişəcək o bağ-bağçanın qazancı? (M. Cəlal)

B) Açıldı bayraqlar, çalındı boru,
Fələk görməmişdi bu vurhavuru. (Ə. Cavad)

C) Doğrusu, qohum-əqrəbanın sözləri mənim də beynimə batır, yoldaş. (C. Məmmədquluzadə)

D) Bu xəbəri eşidər-eşitməz hər kəs təlaşla binanı tərk etdi.

E) Sevgi əzəl gündən sevir baharı,
Baharda insanlar arzuya çatır. (N. Xəzri)

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5, 6, 8
***Alt-Standart:*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
***İzah:*** *Bəs kimə yetişəcək o bağ-bağçanın qazancı?* cümləsində söz sırası pozulmuş, mürəkkəb isim (bağ-bağça) işlənmiş, lakin sadə isim işlənməmişdir.
*"Açıldı bayraqlar, çalındı boru,*
*Fələk görməmişdi bu vurhavuru"* nümunəsində söz sırası pozulmuş, həm sadə (bayraq, boru, fələk), həm də mürəkkəb isim (vurhavur) işlənmişdir.
*Doğrusu, qohum-əqrəbanın sözləri mənim də beynimə batır, yoldaş* nümunəsində sadə (söz) və mürəkkəb (qohum-əqrəba) isim işlənsə də, söz sırası pozulmamışdır. (Qeyd: Xitab cümlənin həm əvvəlində, həm ortasında, həm də sonunda işlənə bilər. Xitabın cümlənin sonunda işlənməsi söz sırasını pozmur.)
*Bu xəbəri eşidər-eşitməz hər kəs təlaşla binanı tərk etdi* nümunəsində sadə isim işlənsə də, mürəkkəb isim işlənməmişdir.
*"Sevgi əzəl gündən sevir baharı,*
*Baharda insanlar arzuya çatır"* nümunəsində söz sırası pozulmuş, sadə isim (bahar, insanlar) islənmiş, mürəkkəb isim işlənməmişdir.
***Doğru cavab:***
Açıldı bayraqlar, çalındı boru,
Fələk görməmişdi bu vurhavuru. (Ə. Cavad)

## A variantı 37saylı test tapşırığı
## B variantı 34 saylı test tapşırığı
## C variantı 31 saylı test tapşırığı
## D variantı 34 saylı test tapşırığı

Verilmiş cümlələrdə zərfin mənaca hansı növləri işlənmişdir?

1. Biz kəndə çatanda meşədəki torağayların səsi güclə eşidilirdi.
2. Cavanşir bir qədər dincəlib yoluna davam etdi.

A) zaman, kəmiyyət
B) tərzi-hərəkət, yer
C) tərzi-hərəkət, zaman
D) tərzi-hərəkət, kəmiyyət
E) zaman, yer

***Mövzu:*** Zərf
***Sinif:*** 7
***Alt-Standart:*** 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
***İzah:*** *Biz kəndə çatanda meşədəki torağayların səsi güclə eşidilirdi* cümləsində ***güclə*** sözü tərzi-hərəkət zərfidir. *Cavanşir bir qədər dincəlib yoluna davam etdi* cümləsində ***bir qədər*** sözü kəmiyyət zərfidir.
***Doğru cavab:*** tərzi-hərəkət, kəmiyyət

## A variantı 38 saylı test tapşırığı
## B variantı 38 saylı test tapşırığı
## C variantı 35 saylı test tapşırığı
## D variantı 31 saylı test tapşırığı

Cümlələrdə fərqləndirilmiş sözləri nəzərə alaraq uyğunluğu müəyyən edin.

1. Qarşı **tərəf** buz bağladığından nəqliyyatın hərəkəti məhdudlaşdırılmışdı.
2. Maşın saat ikidə şərqə **tərəf** yol aldı.

a. Sözə qoşularaq məna çaları yaradır.
b. İfadə olunan fikrə münasibət bildirir.
c. Leksik mənası var.
d. Yalnız qrammatik mənası var.
e. Cümlə üzvləri arasında əlaqə yaradır.

A) 1 – b; 2 – c, d
B) 1 – c; 2 – a, e
C) 1 – b; 2 – a, e
D) 1 – c; 2 – a, d
E) 1 – c, e; 2 – d

***Mövzu:*** Morfologiya
***Sinif:*** 5-7
***Alt-Standart: :*** 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir.
***İzah:*** *Qarşı* ***tərəf*** *buz bağladığından nəqliyyatın hərəkəti məhdudlaşdırılmışdı* cümləsində *tərəf* sözü isimdir, leksik mənası var; *Maşın saat ikidə şərqə* ***tərəf*** *yol aldı* cümləsində *tərəf* sözü qoşmadır, sözə qoşularaq məna çaları yaradır, yalnız qrammatik mənası var.
***Doğru cavab:*** 1 – c; 2 – a, d

## A variantı 39 saylı test tapşırığı
## B variantı 33 saylı test tapşırığı
## C variantı 36 saylı test tapşırığı
## D variantı 40 saylı test tapşırığı

Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.

| Lazım şəkli | Arzu şəkli |
|---|---|
| 1. Təsdiqdə işlənsə də, inkarda işlənə bilmir.<br>2. "*Gələsiniz*" sözü bu şəkildədir. | 3. "*Kaş Anar da gəlsin*" cümləsində feil bu şəkildədir.<br>4. "*İsə*" köməkçi sözü (hissəciyi) ilə işlənə bilmir. |
| 5. Cümlənin feili xəbəri olur.<br>6. Məchul növdə işlənə bilir. | |

A) 4, 5, 6 B) 1, 3, 6 C) 2, 4, 5
D) 2, 3, 6 E) 1, 3, 5

***Mövzu:*** Feil. Feilin şəkilləri
***Sinif:*** 6, 7
***Alt-Standart:*** .1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir; 4.1.2. Sözləri ümumi qrammatik mənasına görə fərqləndirir.
***İzah:*** *Təsdiqdə işlənsə də, inkarda işlənə bilmir* fikri lazım şəklinə aid deyil, çünki lazım şəklinin inkarı feilə *deyil* sözü artırmaqla düzəlir. "*Gələsiniz*" sözü lazım şəklində yox, arzu şəklindədir. "*Kaş Anar da gəlsin"* cümləsində feil arzu şəklində yox, əmr şəklindədir. *Arzu şəkli "isə"* köməkçi sözü (hissəciyi) ilə işlənə bilmir. Həm lazım, həm arzu şəkli cümlənin feili xəbəri olur və hər iki şəkil məchul növdə işlənə bilir.
***Doğru cavab:*** 4, 5, 6

## A variantı 40 saylı test tapşırığı
## B variantı 40 saylı test tapşırığı
## C variantı 33 saylı test tapşırığı
## D variantı 32 saylı test tapşırığı

"*Xalqımızın mərd oğulları bu mübarizəyə qoşuldular ki, gələcək nəsillər azad və xoşbəxt yaşasınlar*" tabeli mürəkkəb cümləsinin təhlili ilə bağlı ***səhvi*** müəyyən edin.

A) Budaq cümlə baş cümləyə bağlayıcı ilə bağlanıb.
B) □⟵○ sxeminə uyğundur.
C) Baş və budaq cümlələr müəyyən şəxslidir.
D) Həm baş, həm də budaq cümlə feili xəbərlidir.
E) Həm baş, həm də budaq cümlədə sintaktik əlaqənin hər iki növündən istifadə edilib.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 7-9
***Alt-Standart:*** 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir; 4.1.2. Sözləri və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlədir.
***İzah:*** *Xalqımızın mərd oğulları bu mübarizəyə qoşuldular ki, gələcək nəsillər azad və xoşbəxt yaşasınlar* cümləsində budaq cümlə baş cümləyə *ki* tabelilik bağlayıcısı ilə bağlanmışdır. *Xalqımızın mərd oğulları bu mübarizəyə qoşuldular cümləsi* baş, *gələcək nəsillər azad və xoşbəxt yaşasınlar* cümləsi budaq cümlədir. Həm baş, həm də budaq cümlə feili xəbərli və müəyyən şəxsli cümlədir. Budaq cümlədə sintaktik əlaqənin hər iki növündən (tabesizlik və tabelilik) istifadə edilib. *Azad* və *xoşbəxt* sözləri arasında tabesizlik, *gələcək nəsillər, nəsillər yaşasın, azad yaşasın, xoşbəxt yaşasın* sözləri arasında tabelilik əlaqəsi var. Baş cümlədə isə yalnız tabelilik əlaqəsindən istifadə edilib.
***Doğru cavab:*** Həm baş, həm də budaq cümlədə sintaktik əlaqənin hər iki növündən istifadə edilib.

***41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.***

### Bir il

Qəribə sentyabr idi. On bir il sentyabrın birində məktəbin yolunda addımlamışdım, amma indi zavodun yolunu tutmuşdum. Bir neçə ay əvvəl işdən çıxan anamın *israrına*[1] fikir verməyərək qəbul imtahanına getməmişdim. İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, çox çətinliklər görmüşdü.

☐ Briqada yoldaşlarım, qocaman usta Səlim, Muxtar, Əhəd işin incəliklərini mənə öyrətdilər. Usta Səlim məni "sonbeşiyim" adlandırır, dərdimi-sərimi diqqətlə dinləyir, mənə öyüd verirdi. Bu insanların arasında işləmək mənə o qədər xoş gəlirdi ki, yavaş-yavaş qəlbimdəki sıxıntını, müəllimlərimdən, sinif yoldaşlarımdan eşitdiyim "Fuad məşhur riyaziyyatçı olacaq" sözlərini də unutmağa başlamışdım. Hətta övladlarının ali təhsil almasını arzulayan anamın "Sən oxumalısan" nəsihəti də ▲ ***bu qulağımdan girib o biri qulağımdan çıxırdı.***

Son vaxtlar usta Səlim xeyli dəyişmişdi, gözlərində dərin *hüzn*[2] var idi, əvvəlki *qıvraq*[3] davranışından əsər qalmamışdı, *ovqatı*[4] da tez-tez korlanırdı.

– Son vaxtlar heç özünə oxşamırsan, usta, – dedim.

– Mən çoxdan özümə oxşamıram, oğul. ☐ Görürsən, heç əlimə açar da almıram.

Gülümsədim:

– Açar nəyinə lazımdır? Məsləhətin bizə bəsdir. Sənin bacarığın, təcrübən kimsədə yoxdur.

Usta Səlim qətiyyətlə başını buladı:

– Adam gərək öz çörəyini yesin. Muxtar da, Əhəd də işi məndən yaxşı bilir. Nə əlimdən daha bir iş gəlir, nə də məsləhətim bir kimsəyə lazımdır.

– Bəs mənə?

Qoca usta düz gözlərimin içinə baxdı və dedi:

– Sən bura adamı deyilsən.

– Niyə, usta, yoxsa mənim bacarığıma inanmırsan?

– İnanıram, hamımız inanırıq. Hətta sən bura gələndə düşünmüşdüm ki, nə vaxtsa məni sən əvəz edəcəksən. Amma indi fikirlərim dəyişib. Sən bu zavodda müvəqqətisən. Sən alim olacaqsan. Hər kəs öz yerini tapmalıdır. Ancaq bizim yollarımız ayrılır. Mən gedirəm.

– Hara? Niyə?

– İşdən çıxacağam. İstəmirəm, qulağım eşidə-eşidə "Bu kişi nə vaxt gedəcək?" desinlər.

☐ Ustanı bu yoldan çəkindirməyə təşəbbüs göstərməyin mənasız olduğunu düşünüb susdum.

Məktəbi bitirəndən sonra ikinci sentyabrı qarşılayıram. Bu sentyabrda birincidən fərqli olaraq, ■ ***uçmağa qanadım yoxdur***. İstəyirəm, hamıya deyim ki, mən tələbəyəm, özü də elə-belə tələbə yox, fəhlə tələbə. Öz əlinin zəhməti ilə yaşayan tələbə. Bu bircə ildə çox şey öyrəndim, ● ***həyat məktəbi keçdim***, möhkəm, zəif, saf

adamlarla münasibət qurdum, əsl kişilərlə çiyin-çiyinə çalışmağı, işləməyi öyrəndim. ______ Ən əsası, öz yerimdə olmağı öyrəndim.

## A variantı 41 saylı test tapşırığı
## B variantı 41 saylı test tapşırığı
## C variantı 41 saylı test tapşırığı
## D variantı 41 saylı test tapşırığı

Mətnə əsasən Fuad obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Universitetə daxil olmaq üçün biliyi kifayət etmir.
2. İmtahandakı uğursuzluqdan sonra zavodda işləmək məcburiyyətində qalır.
3. Usta Səlimlə səmimi münasibət qurmağa nail olmuşdur.
4. İşin incəliklərini öyrənir.

A) 1, 4 B) 1, 3 C) 3, 4 D) 1, 2 E) 2, 3

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Universitetə daxil olmaq üçün biliyi kifayət etmir, İmtahandakı uğursuzluqdan sonra zavodda işləmək məcburiyyətində* qalır fikirləri yanlışdır, çünki Fuad anasının israrına fikir verməyərək qəbul imtahanına getməmişdi.
*Usta Səlimlə səmimi münasibət qurmağa nail olmuşdur* fikri doğrudur, Fuad usta Səlimlə dərdləşir, usta onu “sonbeşiyim” adlandırır, ona öyüd verir, yol göstərir, mehriban davranır.
*İşin incəliklərini öyrənir* fikri də doğrudur. Mətndə qeyd olunur ki, briqada yoldaşları, qocaman usta Səlim, Muxtar, Əhəd işin incəliklərini Fuada öyrədiblər.
***Doğru cavab:*** 3, 4

## A variantı 42 saylı test tapşırığı
## B variantı 43 saylı test tapşırığı
## C variantı 42 saylı test tapşırığı
## D variantı 43 saylı test tapşırığı

Mətnə əsasən boşluqların yerinə yazıla biləcək cümlələrin ardıcıllığını müəyyən edin.

1. Onun əzabını, ağrısını, artıq zavodda faydasız olduğunu düşünməsini anlayırdım.
2. Artıq zavodda işlədiyim bir neçə gün idi.
3. Ən çətin, böhranlı vaxtımda əlimdən tutub mənə dəstək olan, qüvvət, mətanət hissi aşılayan insanları tanıdım.
4. Qabaqkı kimi işləyə bilmirəm, barmaqlarım sözümə baxmır.

A) 1, 4, 3, 2 B) 1, 2, 4, 3 C) 2, 4, 1, 3
D) 4, 2, 1, 3 E) 2, 3, 4, 1

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** *Artıq zavodda işlədiyim bir neçə gün idi* cümləsini birinci, *Qabaqkı kimi işləyə bilmirəm, barmaqlarım sözümə baxmır* cümləsini ikinci, *Onun əzabını, ağrısını, artıq zavodda faydasız olduğunu düşünməsini anlayırdım* cümləsini üçüncü, *Ən çətin, böhranlı vaxtımda əlimdən tutub mənə dəstək olan, qüvvət, mətanət hissi aşılayan insanları tanıdım* cümləsini dördüncü boşluğa əlavə etmək olar.
***Doğru cavab:*** 2, 4, 1, 3

## A variantı 43 saylı test tapşırığı
## B variantı 42 saylı test tapşırığı
## C variantı 45 saylı test tapşırığı
## D variantı 45 saylı test tapşırığı

Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Mətndə məlumat var* | *Mətndə məlumat yoxdur* |
|---|---|
| 1. Müəllimləri Fuadın gələcəyi ilə bağlı yüksək fikirdə idilər.<br>2. Fuad zavodda maşınqayırma sahəsində çalışır.<br>3. Fuad zavoda gələndə usta Səlim düşünmüşdü ki, nə vaxtsa onu Fuad əvəz edəcək. | 4. Fuad ailənin yeganə övladı deyil.<br>5. Ustanın gedişindən sonra işçilərdən biri onun yerinə keçir.<br>6. Briqadanın digər üzvləri də qoca ustanın işdən getməsinə qarşı idilər. |

A) 1, 4, 5, 6 B) 2, 3, 4 C) 1, 2, 4, 6
D) 1, 3, 5, 6 E) 2, 3, 5

***Mövzu:*** Mətn
***Sinif: Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Müəllimləri Fuadın gələcəyi ilə bağlı yüksək fikirdə idilər* fikri mətndə var. *Müəllimləri Fuadın məşhur riyaziyyatçı olacağına əmin idilər.*
*Fuad zavoda gələndə usta Səlim düşünmüşdü ki, nə vaxtsa onu Fuad əvəz edəcək* fikri mətndə öz əksini tapıb: “*Hətta sən bura gələndə düşünmüşdüm ki, nə vaxtsa məni sən əvəz edəcəksən*”.
*Fuad ailənin yeganə övladı deyil* fikri mətndə var, bu fikrə mətndə iki yerdə rast gələ bilərik: *İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, çox çətinliklər görmüşdü. Hətta övladlarının ali təhsil almasını arzulayan anamın “Sən oxumalısan” nəsihəti də bu qulağımdan girib o biri qulağımdan çıxırdı.*
*Fuad zavodda maşınqayırma sahəsində çalışır; Ustanın gedişindən sonra işçilərdən biri onun yerinə keçir; Briqadanın digər üzvləri də qoca ustanın işdən getməsinə qarşı idilər* fikirləri mətndə öz əksini tapmayıb.
***Doğru cavab:*** 1, 3, 5, 6

## A variantı 44 saylı test tapşırığı
## B variantı 45 saylı test tapşırığı
## C variantı 44 saylı test tapşırığı
## D variantı 42 saylı test tapşırığı

Hansı cümlədə mətndə üzərində rəqəm yazılmış sözlərdən heç birinin mənasına uyğun söz ***işlənməmişdir***?

A) Almurad çevik hərəkətlə qalxıb ata mindi.
B) Müğənninin səsi insana kədər gətirirdi.
C) Əhvalının xoş vaxtında heç nəyə etiraz etməzdi.
D) Rəisin təkidinə baxmayaraq, şinelini götürmək istəmədi.
E) Zavod sanki canlanmışdı, intensiv iş gedirdi.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir;

***İzah:*** Mətndə üzərində 1 rəqəmi yazılmış sözün ***(israr)*** mənasına uyğun söz *Rəisin* ***təkidinə*** *baxmayaraq, şinelini götürmək istəmədi* cümləsində; üzərində 2 rəqəmi yazılmış sözün ***( hüzn)*** mənasına uyğun söz *Müğənninin səsi insana* ***kədər*** *gətirirdi;* üzərində 3 rəqəmi yazılmış sözün ***( qıvraq)*** mənasına uyğun söz *Almurad* ***çevik*** *hərəkətlə qalxıb ata mindi;* üzərində 4 rəqəmi yazılmış sözün ***( ovqat)*** mənasına uyğun söz ***Əhvalının*** *xoş vaxtında heç nəyə etiraz etməzdi* cümləsində işlənmişdir. *Zavod sanki canlanmışdı, intensiv iş gedirdi* cümləsində mətndə üzərində rəqəm yazılmış sözlərdən heç birinin mənasına uyğun söz işlənməmişdir.
***Doğru cavab:*** Zavod sanki canlanmışdı, intensiv iş gedirdi.

## A variantı 45 saylı test tapşırığı
## B variantı 44 saylı test tapşırığı
## C variantı 43 saylı test tapşırığı
## D variantı 44 saylı test tapşırığı

Mətnə əsasən səbəbini müəyyən etmək mümkün ***deyil***:
1. Ustanın işdən getmək istəməsinin
2. Ananın işdən çıxmasının
3. Fuadın zavodda işləmək qərarının
4. Ananın övladlarını tək böyütməsinin
5. Fuadın öz işi ilə bağlı məmnuniyyətinin

A) 1, 2 B) 2, 4 C) 3, 5 D) 3, 4 E) 1, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** *Fuadın zavodda işləmək qərarının* səbəbi mətndə verilmişdir. Mətndən aydın olur ki, Fuad anasına dəstək olmaq istəyir, zavodda işə başlayır. *Fuadın öz işi ilə bağlı məmnuniyyətinin* səbəbini mətndəki *...insanların arasında işləmək mənə o qədər xoş gəlirdi ki, yavaş-yavaş qəlbimdəki sıxıntını, müəllimlərimdən, sinif yoldaşlarımdan eşitdiyim "Fuad məşhur riyaziyyatçı olacaq" sözlərini də unutmağa başlamışdım"* fikri əsasında müəyyən etmək olar.
*Ustanın işdən getmək istəməsinin səbəbi mətndə verilib.* Usta əlindən daha bir iş gəlmədiyini, məsləhətinin kimsəyə lazım olmadığını düşündüyü üçün işdən getmək istəyir.
*Ananın işdən çıxmasının; Ananın övladlarını tək böyütməsinin* səbəbi mətndə verilməyib.
***Doğru cavab:*** 2, 4

***46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

## A variantı 46 saylı test tapşırığı
## B variantı 46 saylı test tapşırığı
## C variantı 46 saylı test tapşırığı
## D variantı 46 saylı test tapşırığı

Mətnə əsasən əvvəlində işarə qoyulmuş ifadələrin mənasını müəyyən edib yazın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir; 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***Ehtimal edilən doğru cavab variantları:***
▲ ***bu qulağımdan girib o biri qulağımdan çıxırdı*** - *əhəmiyyət verməmək, əməl etməmək, vecinə almamaq, qulaqardına vurmaq, eşitməmək, deyilənə əhəmiyyət verməmək, saymazlıq göstərmək, söz batmamaq, söz təsir etməmək, sağ qulağından alıb sol qulağından vermək (ötürmək), bir qulağından alıb o biri qulağından vermək (ötürmək)*
■ ***uçmağa qanadım yoxdur*** – *sevinmək, fərəhlənmək, şadlanmaq, yerə-göyə sığmamaq, qanad açıb uçmaq, hədsiz dərəcədə sevinmək, şad olmaq*
● ***həyat məktəbi keçdim****- təcrübə qazanmaq, çox şey öyrənmək, böyük təcrübə qazanmaq, sınaq meydanından keçdim*

## A variantı 47 saylı test tapşırığı
## B variantı 47 saylı test tapşırığı
## C variantı 47 saylı test tapşırığı
## D variantı 47 saylı test tapşırığı

Mətnə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***

| *Hadisəni nəql edən şəxsin xüsusiyyətləri* | *Əsaslandırma* |
|---|---|
| zəhmətkeş | Məktəbi bitirən kimi zavodda işləməyə başladı;<br>Tələbə olduğu halda zavodda fəhləlik edir. |
| diqqətli | Son vaxtlar Usta Səlimin dəyişdiyini sezmişdi. |
| qayğıkeş | Anasının qeydinə qalır, ona dəstək olmaq üçün işləməyə qərar verir. |

## A variantı 48 saylı test tapşırığı
## B variantı 48 saylı test tapşırığı
## C variantı 48 saylı test tapşırığı
## D variantı 48 saylı test tapşırığı

Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.




***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***
***Usta Səlim:***
Qürurludur; Düşüncəlidir; Müdrikdir; Özünə layiq bilmədiyi çörəyi yemək istəmir; Qocaldığı üçün işləyə bilməyəcəyini düşünür və başqasının yerini tutmamaq üçün işdən gedir; Təcrübəlidir; İşini incəliklərinə qədər bilir; Uzaqgörəndir; Fuadın tezliklə öz yerini tapacağını anlayır;

Bacarıqlıdır; İllərdir bu sahədə çalışır; Qətiyyətlidir; Verdiyi qərara sonadək əməl edir və s.

***Ana:***

Övladlarının ali təhsil almasını arzulayır; Övladlarını tək böyüdüb; Çətinliklərlə üzləşib və s.

***Ortaq cəhətlər:***

Zəhmətkeşdir; Qayğıkeşdir; Fuada məsləhət verir; Təhsilin önəmini anlayır; Fuada təhsil almasını məsləhət görür və s.

## A variantı 49 saylı test tapşırığı
## B variantı 49 saylı test tapşırığı
## C variantı 49 saylı test tapşırığı
## D variantı 49 saylı test tapşırığı

"*İnsan həyatda öz yerini tapanda əsl xoşbəxtliyə çatır*" aforizmini mətnlə əlaqələndirərək fikirlərinizi yazın.

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***Alt-standart:*** 3.1.2. Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.

***Ehtimal edilən doğru cavab variantları:***

Zavodda işlədiyi bir il ərzində Fuad həyat məktəbi keçir, möhkəm, zəif, saf adamlarla münasibət qurur, əsl kişilərlə çiyin-çiyinə çalışmağı, işləməyi öyrənir. Ən əsası öz yerində olmağı öyrənir. Hər kəsə bildirmək istəyir ki, o öz əlinin zəhməti ilə yaşayan fəhlə tələbədir. Fuad həyatda öz yerini tapdığı üçün əsl xoşbəxliyə çatır. Buna görə də o özünü xoşbəxt hiss edir.

## A variantı 50 saylı test tapşırığı
## B variantı 50 saylı test tapşırığı
## C variantı 50 saylı test tapşırığı
## D variantı 50 saylı test tapşırığı

Altından xətt çəkilmiş cümləni mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun zənginləşdirməklə yenidən yazın.

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***Alt-standart:*** 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.

***Ehtimal edilən doğru cavab variantları:***

İndi mən anamın *əlindən tutmaq* istəyirdim, o, qardaşımla məni tək böyütmüş, *kirpiyi ilə od götürmüşdü;*

İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək *boya-başa çatdırmış*, çox çətinliklər görmüşdü;

İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, çox *cəfalar çəkmişdi;*

İndi mən *arxamızda dağtək duran* anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, çox çətinliklər görmüşdü;

İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, *dünyanın ağrı-acısı ilə üz-üzə qalmış, çətin həyat yolu keçmişdi;*

İndi mən anama dəstək olmaq istəyirdim, o, qardaşımla məni tək böyütmüş, *çox çətinliklərlə üz-üzə durmuşdu;*

İndi mən *gözləri payız buludu kimi tez-tez dolub-boşalan* anama dəstək olmaq istəyirdim, o qardaşımla məni tək böyütmüş, çox çətinlik görmüşdü və s.

### Şumerlərin yaratdığı "Tufan" əfsanəsi dünyaya necə yayıldı?

Şumerlər dünyanın qədim xalqlarından biridir. Onlar ən qədim yazının müəllifidirlər, hətta ilk təkəri, altmışlıq hesablama sistemini də şumerlər yaratmışlar. Dünya xalqlarına məxsus bir çox əsərlər də qədim Şumer miflərindən qaynaqlanır.

Tanrının insanları güclü bir tufanla cəzalandırması haqqındakı "Tufan" əfsanəsi də bir çox xalqların mifologiyasında cüzi məzmun fərqləri ilə təkrarlanır.

"Tufan" əfsanəsinə görə, bir gün tanrılar insanları cəzalandırmaq istəyirlər. **I** Bu zaman tanrı Enki kral Ziusudraya böyük daşqının olacağı barədə məlumat verir, bu xəbəri eşidən Ziusudra da böyük bir gəmi düzəltdirir. Oraya bütün canlılardan bir cüt toplayır. Tezliklə sel başlayır. **II** Bütün dünyanı su basdıqdan sonra Ziusudra havaya bir göyərçin buraxır. Həmin göyərçin qonmağa yer tapmayıb gəmiyə qayıdır. **III** Sonra bir qaranquş göndərir. O da geri qayıdır. Nəhayət, uçurduğu qarğa geri dönməyəndə suyun çəkildiyini anlayan Ziusudra ▲*quru* sahə tapır və gəmidəkilərlə birgə gəmini tərk edir.

**IV** Arxeoloji araşdırmalar Şumer bölgəsinin zaman-zaman güclü daşqınlara məruz qaldığını təsdiqləyir. Bunlardan Ur şəhərindəki daşqının izləri daha aydın görünür. **V** Burada aparılmış araşdırmalar qədim bir mədəniyyətin 2,5 metr qalınlıqda palçıq *qatının*[1] altında qaldığını üzə çıxarmışdır.

Şumerlərin qarşılaşdığı təbiət hadisələri onların həyat tərzinə təsir göstərdiyi kimi, mifologiyalarına da təsirsiz ötüşməmişdir. Güman ki, "Tufan" əfsanəsinin yaranması da Ur şəhərindəki daşqınla bağlı olmuşdur.

Təbiət hadisələrinin səbəbini *qavramayan*[2], yaşadığı ərazinin coğrafiyası haqqında kifayət qədər biliklərə malik olmayan şumerlər məskunlaşdığı və tanıdığı əraziləri bütün dünya kimi təsəvvür edirdilər. Buna görə böyük sel fəlakətləri ilə ■*üzləşərkən* bu hadisəni ümumdünya daşqını kimi qəbul etmişdilər. Lakin şumerlərin düşüncələrinin əksinə olaraq, bütün dünyanın, yaxud bir ölkənin dağları aşacaq səviyyədə bir daşqına məruz qalmasının mümkünlüyünü elm ......... .

Bəs necə olur ki, qədim şumerlərin yaratdığı bir əfsanə bir çox dünya xalqlarının, məsələn: Yunanıstan, Amerika, Avstraliya, Hindistan, Çin və Litva kimi müxtəlif ərazilərdə yaşayan xalqların mifologiyasında təkrarlanır? Bu, qədim tayfaların şumerlərin yaşadığı Mesopotamiya ərazisinə *davamlı*[3] yürüş və hücumları, köçləri, eləcə də onların şumerlərlə ticarət əlaqələri qurması ilə bağlı olmuşdur.

Unutmayaq ki, Şumer mədəniyyəti qədim dünyanın bir çox xalqlarına təsir etmişdir. Bu mədəniyyətin təsiri ilə yeni mədəniyyətlər yaranmışdır. Bu baxımdan Şumer mifologiyasının da dünya xalqlarının mifologiyasına təsiri mümkündür.

## A variantı 51 saylı test tapşırığı
## B variantı 54 saylı test tapşırığı
## C variantı 54 saylı test tapşırığı
## D variantı 51 saylı test tapşırığı

Əvvəlində Roma rəqəmi yazılmış hansı cümlə mətndən çıxarılsa, məzmuna xələl ***gəlməz***?

A) V B) IV C) II D) III E) I

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.
***İzah:*** Mətndə qarşısında Roma rəqəmi qoyulmuş **I** (Bu zaman tanrı Enki kral Ziusudraya böyük daşqının olacağı barədə məlumat verir, bu xəbəri eşidən Ziusudra da böyük bir gəmi düzəltdirir); **II** (Bütün dünyanı su basdıqdan sonra Ziusudra havaya bir göyərçin buraxır); **III (**Sonra bir qaranquş göndərir); **IV (**Arxeoloji araşdırmalar Şumer bölgəsinin zaman-zaman güclü daşqınlara məruz qaldığını təsdiqləyir) cümlələrini mətndən çıxarsaq, məzmuna xələl gələr.
**V (***Burada aparılmış araşdırmalar qədim bir mədəniyyətin 2,5 metr qalınlıqda palçıq qatının altında qaldığını üzə çıxarmışdır*) cümləni mətndən çıxarsaq, məzmuna xələl gəlməz. Çünki bu cümlə abzaslar arasında əlaqə yaratmağa xidmət etməmişdir. Həmin cümlənin mətndən çıxarılması abzaslar arasında əlaqəyə təsir göstərmir.
***Doğru cavab:*** V

## A variantı 52 saylı test tapşırığı
## B variantı 52 saylı test tapşırığı
## C variantı 52 saylı test tapşırığı
## D variantı 52 saylı test tapşırığı

Mətn əsasında cədvəldəki uyğun fikirləri müəyyən edin.

| *Doğru* | *Yanlış* | *Ehtimal* |
|---|---|---|
| 1. Araşdırmalar sübut etmişdir ki, Şumer bölgəsində ilk daşqın Ur şəhərində baş vermişdir.<br>2. Şumer mədəniyyəti yeni mədəniyyətlərin yaranmasında rol oynamışdır. | 3. Şumerlərin qədim tayfalarla ticarət əlaqələri olmuşdur.<br>4. Şumerlərin digər ərazilərə yürüş və hücumları onların yaratdığı əfsanənin bir çox xalqlar arasında yayılmasına səbəb olmuşdur. | 5. Şumerlər Mesopotamiya ərazisində məskunlaşmış-dılar.<br>6. “Tufan” əfsanəsinin yaranması Ur şəhərindəki daşqınla bağlı olmuşdur. |

A) 2, 3, 5 B) 2, 4, 6 C) 1, 3, 5
D) 1, 4, 6 E) 3, 4, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Cədvəlin ***Doğrudur*** başlıqlı sütununda verilmiş *Araşdırmalar sübut etmişdir ki, Şumer bölgəsində ilk daşqın Ur şəhərində baş vermişdir* fikri ***ehtimaldır.*** Çünki arxeoloji araşdırmalar Şumer bölgəsinin zaman-zaman güclü daşqınlara məruz qaldığını təsdiqləsə də, ilk daşqının Ur şəhərində baş verdiyi ***söylənilmir***; *Şumer mədəniyyəti yeni mədəniyyətlərin yaranmasında rol oynamışdır* fikri mətnin sonuncu abzasında öz əksini tapdığı üçün ***doğrudur***.
Cədvəlin ***Yanlışdır*** başlıqlı sütununda verilmiş *Şumerlərin qədim tayfalarla ticarət əlaqələri olmuşdur* fikri mətndə öz əksini tapıb, doğrudur; *Şumerlərin digər ərazilərə yürüş və hücumları onların yaratdığı əfsanənin bir çox xalqlar arasında yayılmasına səbəb olmuşdur fikri* ***yanlışdır***, çünki mətndən məlum olur ki, digər xalqların şumerlərin yaşadıqları ərazilərə hücumu, yürüşü şumerlərin yaratdığı əfsanənin bir çox xalqlar arasında yayılmasına səbəb olmuşdur.
Cədvəlin ***Ehtimaldır*** başlıqlı sütununda verilmiş *Şumerlər Mesopotamiya ərazisində məskunlaşmışılar* fikri mətndə öz əksini tapdığı üçün ***doğrudur***; *“Tufan” əfsanəsinin yaranması Ur şəhərindəki daşqınla bağlı olmuşdur* fikri mətndə fakt kimi deyil, ***ehtimal*** kimi verilmişdir.
***Doğru cavab:*** 2, 4, 6

## A variantı 53 saylı test tapşırığı
## B variantı 53 saylı test tapşırığı
## C variantı 55 saylı test tapşırığı
## D variantı 53 saylı test tapşırığı

Mətnin tərkib hissələri ilə bağlı doğru fikri müəyyən edin.
A) Mətnin əsas hissəsinə “Şumerlərin məşğuliyyəti” başlığını vermək olar.
B) “Tarixdə ilk dəfə dövlət quran, idarəetmə sistemi yaradanlardan biri də onlardır” cümləsi ilə mətnin giriş hissəsini genişləndirmək olar.
C) Mətnin giriş və nəticə hissəsində bir-birinə zidd olan fikirlər verilmişdir.
D) Nəticə hissədə məntiqi əlaqəni pozan cümlə işlənmişdir.
E) “Daşqınlardan sonra məcrasına çəkilən çayların yerində qalın gil-lil qatı qalırdı” cümləsini mətnin yeddinci abzasına artırsaq, cümlələr arasındakı məzmun ardıcıllığı pozulmaz.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir; 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni gözləməklə mətni genişləndirir.
***İzah:*** *Mətnin əsas hissəsinə “Şumerlərin məşğuliyyəti” başlığını vermək olar* fikri ***yanlışdır***, çünki mətnin əsas hissəsində şumerlərin məşğuliyyətindən deyil, onların yaratdığı əfsanənin digər xalqlar arasında necə yayılmasından danışılır.
*“Tarixdə ilk dəfə dövlət quran, idarəetmə sistemi yaradanlardan biri də onlardır” cümləsi ilə mətnin giriş hissəsini genişləndirmək olar* fikri ***doğrudur***. Giriş hissədə şumerlərin bəzi ilklərə imza atmalarından danışılır. Bu nümunədə də şumerlərin tarixdə ilk dövlət qurmasından, idarəetmə sistemi yaratmasından söz açılır.
*Mətnin giriş və nəticə hissəsində bir-birinə zidd olan fikirlər verilmişdir* fikri ***yanılışdır***. Giriş və nəticə hissəsində verilmiş fikirlər bir-biri ilə əlaqəlidir.
*Nəticə hissədə məntiqi əlaqəni pozan cümlə işlənmişdir* fikri **yanlışdır.** Mətnin nəticə hissəsində verilmiş cümlələr arasında məntiqi əlaqə gözlənilmişdir.
*“Daşqınlardan sonra məcrasına çəkilən çayların yerində qalın gil-lil qatı qalırdı” cümləsini mətnin yeddinci abzasına artırsaq, cümlələr arasındakı məzmun ardıcıllığı pozulmaz* fikri ***yanlışdır.*** Bu nümunə yeddinci abzasın məzmununa uyğun deyil.
***Doğru cavab:*** “Tarixdə ilk dəfə dövlət quran, idarəetmə sistemi yaradanlardan biri də onlardır” cümləsi ilə mətnin giriş hissəsini genişləndirmək olar.

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

Mətnə əsasən hansı suallara cavab tapmaq mümkündür?

1. Tanrılar insanları nə üçün cəzalandırmaq istəyirlər?
2. Kral daşqının olacağından necə xəbər tutur?
3. Ziusudranın havaya uçurduğu göyərçin nə üçün geri qayıdır?
4. Ur şəhərindəki daşqın neçə gün davam etmişdir?
5. Ziusudra suyun çəkildiyini necə anlayır?

A) 2, 4, 5 B) 1, 3, 4 C) 1, 3, 5
D) 1, 2, 4 E) 2, 3, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***İzah:*** Mətndə *Tanrılar insanları nə üçün cəzalandırmaq istəyirlər? Ur şəhərindəki daşqın neçə gün davam etmişdir?* suallarına cavab tapmaq mümkün deyil.
*Kral daşqının olacağından necə xəbər tutur?* sualına *"tanrı Enki kral Ziusudraya böyük daşqının olacağı barədə məlumat verir"* cümləsi ilə cavab vermək mümkündür.
*Ziusudranın havaya uçurduğu göyərçin nə üçün geri qayıdır?* sualına *"Həmin göyərçin qonmağa yer tapmayıb gəmiyə qayıdır"* cümləsi ilə cavab vermək mümkündür.
*Ziusudra suyun çəkildiyini necə anlayır?* sualına *"Nəhayət, uçurduğu qarğa geri dönməyəndə suyun çəkildiyini anlayan Ziusudra....."* cümləsi ilə cavab vermək mümkündür.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Mətnin tezislərinə aid edilə ***bilməz***:

1. Eyni mövzuya müxtəlif xalqların mifologiyasında rast gəlmək olar.
2. Şumerlər digər xalqların mifologiyasına müraciət etmişlər.
3. Şumerlər daşqınlardan qorunmaq üçün yaşayış yerlərini daim dəyişmişdilər.
4. İnsanlar bütün təbii fəlakətlərin qarşısını tamamilə ala bilərlər.
5. Arxeoloji araşdırmalar Şumer bölgəsində baş vermiş hadisələr haqqında məlumat verir.

A) 2, 3, 4 B) 1, 2 C) 1, 3, 4 D) 4, 5 E) 1, 5

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.2. Mətnin hissələrini tezislər şəklində ifadə edir.
***İzah.*** *Şumerlər digər xalqların mifologiyasına müraciət etmişlər; Şumerlər daşqınlardan qorunmaq üçün yaşayış yerlərini daim dəyişmişdilər; İnsanlar bütün təbii fəlakətlərin qarşısını tamamilə ala bilərlər* fikirləri mətnə aid tezis deyil, çünki mətndə bu fikirləri təsdiq edən fakt yoxdur.
*Eyni mövzuya müxtəlif xalqların mifologiyasında rast gəlmək olar* fikri tezisdir, çünki mətndə qədim şumerlərin yaratdığı bir əfsanənin bir çox dünya xalqlarının, məsələn: Yunanıstan, Amerika, Avstraliya, Hindistan, Çin və Litva kimi müxtəlif ərazilərdə yaşayan xalqların mifologiyasında təkrarlanmasından söz açılır.
*Arxeoloji araşdırmalar Şumer bölgəsində baş vermiş hadisələr haqqında məlumat verir* fikri tezisdir, çünki bu fikri *mətndəki Arxeoloji araşdırmalar Şumer bölgəsinin zaman-zaman güclü daşqınlara məruz qaldığını təsdiqləyir. Burada aparılmış araşdırmalar qədim bir mədəniyyətin 2,5 metr qalınlıqda palçıq qatının altında qaldığını üzə çıxarmışdır* faktları ilə təsdiq etmək mümkündür.
***Doğru cavab:*** 2, 3, 4

***56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.***

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Mətnə əsasən cədvəli tamamlayın.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***

| ***Səbəb*** | ***Nəticə*** |
|---|---|
| Şumerlər yaşadıqları ərazinin coğrafiyası haqqında kifayət qədər biliklərə malik deyildilər. | Məskunlaşdıqları, tanıdıqları əraziləri bütün dünya kimi təsəvvür edirdilər;<br>Böyük sel fəlakətləri ilə üzləşərkən bu hadisəni ümumdünya daşqını kimi qəbul etmişdilər. |
| Qədim tayfalar şumerlərin yaşadığı Mesopotamiya ərazisinə davamlı yürüş və hücumlar, köçlər ediblər;<br>Qədim tayfaların şumerlərlə ticarət əlaqələri olmuşdur. | Qədim şumerlərin yaratdığı bir əfsanə bəzi dünya xalqlarının mifologiyasında təkrarlanır. |

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli doldurun.
***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart***: 2.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***

| | *İnformativ funksiya daşıyır (√)* | *Poetik funksiya daşıyır (√)* | *Sözün mətndəkindən fərqli (informativdirsə, poetik; poetikdirsə, informativ) funksiyada söz birləşməsi və ya cümlədə işlədilməsi* |
|---|---|---|---|
| ▲ | √ | | Quru söhbət; quru söz; quru adam;<br>Məqalə quru dildə yazılıb;<br>Onun üslubu çox qurudur;<br>O mənə quru cavab verdi və s. |
| ■ | | √ | Küçədə dostumla üzləşdim;<br>Dünən evə gedəndə Ariflə üzləşdim və s. |

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Mətndə nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 3.1.3. Mətni üslub və struktur cəhətdən təkmişlləşdirir.
***Ehtimal edilən doğru cavab variantları:***

- Sübut etmir.
- Təsdiq etmir.
- Təkzib edir.
- İnkar edir.
- Doğru olmadığını söyləyir.
- Qəbul etmir və s. fikirlər

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Mətnə əsasən cədvəli tamamlayın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
***Ehtimal edilən doğru cavab variantları:***

| *Müddəa* | *Müddəanı təsdiq edən faktlar* |
|---|---|
| *Şumerlər bəzi ilklərə imza atıblar; Şumerlər dünyaya töhfələr veriblər; Şumerlər bir sıra yeniliklər ediblər* məzmunlu və s. fikirlər | Şumerlər ən qədim yazının müəllifidirlər. |
| | Şumerlər ilk təkəri yaratmışdılar. |
| | Şumerlər altmışlıq hesablama sistemini yaratmışlar. |

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Üzərində rəqəm yazılmış sözlərin kontekstə əsasən mənasını müəyyən edib yazın.

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***Alt-standart:*** 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir; 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
***Ehtimal edilən doğru cavab variantları:***
1. qat – təbəqə, lay
2. qavramayan – dərk etməyən, anlamayan, başa düşməyən
3. davamlı – sürəkli, çox uzun sürən, uzun, arası kəsilməyən, ardıcıl

# Riyaziyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

$x' = x + 4$ və $y' = y + 1$ düsturları ilə verilən paralel köçürmədə $A(-3;\ 2)$ nöqtəsi hansı nöqtəyə çevrilər?

A) (–1; –3) B) (1; 3) C) (2; 3)
D) (–3; 2) E) (–1; 3)

***Mövzu***: Paralel köçürmə
***Sinif***: 9
***Alt-Standart:*** 3.2.1. Müstəvi üzərində paralel köçürmə anlayışını bilir və fiqurların çevrilməsinə onu tətbiq edir.

***İzah:*** $\begin{cases} x \to x' = x + 4 \\ y \to y' = y + 1 \end{cases}$

$A(-3; 2) \to A'(-3+4;\ 2+1) = A'(1; 3)$

***Doğru cavab:*** (1; 3)

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

Kəsişməsi boş olmayan $A$ və $B$ çoxluqları üçün $n(A \setminus B) = 6$ və $n(B \setminus A) = 4$ olarsa, $n(A \cup B)$-nin ən kiçik qiymətini tapın.

